***Əfzələddin Xaqani***

# *Rübailər*

*Əl üzdü Xaqani yardan, gözəldən,*
*Yaralı qəlbini qoymayır əldən.*
*Günəş eşq sübhünün pərvanəsidir*
*O da bir çırağa çatmış əzəldən.*

*Müxtəsər gəncliyim sitəmli keçdi,*
*Günüm bildiyim tək çox qəmli keçdi.*
*Böyüklər öldüsə mərsiyə dedim,*
*Ömrüm bu minvalla vərəmli keçdi.*

*Canan qayıqdadır, qorxuram ondan,*
*Könlüm bir gəmimdir, göz yaşım tufan.*
*Yellər sevgilimdən bir busə versə,*
*Lal axan su kimi sakit olar can.*

*Çevirən: Səməd Vurğun*
*Oktyabr, 1939-cu il.*